**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**6102.01 – “YENİYETMƏ VƏ UŞAQ PSİXOLOGİYASI”**

**ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı**

# PROQRAM

**Bakı-2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# 6102.01 – "YENİYETMƏ VƏ UŞAQ PSİXOLOGİYASI"

**ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı**

# PROQRAM

**Proqram Sosial Elmlər və Psixologiya fakültə**
**Elmi Şurasında 19 mart 2026-cı il tarixində təsdiq edilmişdir.**
**(protokol №7)**

**BAKI-2026**

**Tərtib edənlər:** BDU-nun Psixologiya kafedrasının
dosenti, psixologiya üzrə fəlsəfə doktoru
Sevinc Quliyeva

BDU-nun Psixologiya kafedrasının
dosenti, psixologiya üzrə fəlsəfə doktoru
Azər Mustafayev

**Elmi redaktor:** BDU-nun psixologiya kafedrasının müdiri,
professor, psixologiya elmləri doktoru
Səxavət Əliyeva

**MƏZMUNU**

Ümumi qaydalar
Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
Bölmə III. Yeniyetmə və uşaq psixologiyasının ümumi nəzəri məsələləri
Fəsil 1.Yeniyetmə və uşaq psixologiyasının mövzusu və vəzifələri
Fəsil 2. Yeniyetmə və uşaq psixologiyasının qısa inkişaf tarixi
Fəsil 3. Tədqiqat metodları
Fəsil 4. Yeniyetmə və uşaq psixologiyasında psixi inkişaf problemi
Fəsil 5. Psixi inkişafın zəmini və şərtləri
Fəsil 6. Psixi inkişaf və fəaliyyət
Fəsil 7. Psixi inkişaf və təlim
Bölmə IV Çağalıq və körpəlik yaş dövründə psixi inkişafın xüsusiyyətləri
Fəsil 8. Çağalıq yaş dövründə psixi inkişafın xüsusiyyətləri
Fəsil 9. Körpəlik yaş dövründə psixi inkişafın xüsusiyyətləri
Fəsil 10. 1 yaş böhranı
V Bölmə.Erkən yaşlıları psixoloji xüsusiyyətləri
Fəsil 11. Erkən yaşlı uşaqların fiziki və psixi inkişaf xüsusiyyətləri.
VI BÖLMƏ .MƏKTƏBƏQƏDƏR YAŞLILARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ
Fəsil 12. Məktəbəqədər yaşda psixi inkişafın xüsusiyyətləri
Fəsil 13. Məktəbəqədər yaşlılarda idrak proseslərinin inkişafı
Fəsil 14. Məktəbəqədər yaşlılarda təxəyyülün inkişafı
Fəsil 15. Məktəbəqədər yaşlılarda şəxsiyyətin inkişafı
Fəsil 16. Məktəbəqədər yaşda oyun fəaliyyəti
Fəsil 17. Uşaqların məktəb təliminə psixoloji hazırlığı
VI Bölmə. Kiçik məktəb yaşı dövrünün psixoloji xüsusiyyətləri (6;7-10)
Fəsil 18. Kiçik məktəb yaşı dövründə sosial situasiyanın inkişafı
Fəsil 19. Ünsiyyət xüsusiyyətləri.
Fəsil 20. Kiçik məktəblinin idrak fəaliyyəti.
Fəsil 21. Kiçik məktəb yaşı düvrühdə şəxsiyyətinin inkişaf xüsusiyyətləri.
Fəsil 22. Kiçik məktəblinin təlim fəaliyyəti aparıcı fəaliyyət növü kimi.
Bölmə VII. Yeniyetmələrin psixoloji xüsusiyyətləri (10;11-15)
Fəsil 23. Yeniyetməlik dövrünün şərtləri və həyat tərzi
Fəsil 24. Yeniyetməlik dövründə ünsiyyət xüsusiyyətləri
Fəsil 25. Yeniyetməlik dövründə idrak fəaliyyəti
Fəsil 26. Şəxsiyyətin inkişafı
VIII BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI
Bölmə IX. Qiymətləndirmə meyarları
Bölmə X. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

**“ Yeniyetmə və uşaq psixologiyası”** fənni 61 – Psixologiya ixtisası, 6102.01 “Yeniyetmə və uşaq psixologiyası” istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının əsas fənnidir. “ Yeniyetmə və uşaq psixologiyası” fənninin öyrənilməsi bakalavr və magistratura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır.

Proqramın əsasını aşağıdakı fəsillərin əsas müddəaları təşkil edir: “ Yeniyetmə və uşaq psixologiyasının mövzusu və vəzifələri, metodları”, ” Psixi inkişafın zəmini və şərtləri” “Çağalıq yaş dövründə psixi inkişafın xüsusiyyətləri ”, “ Körpəlik yaş dövründə psixi inkişafın xüsusiyyətləri”, “ Erkən yaşlı uşaqların fiziki və psixi inkişaf xüsusiyyətləri ”, “Məktəbəqədər yaşda psixi inkişafın xüsusiyyətləri ”,” Kiçik məktəb yaşı dövründə sosial situasiyanın inkişafı, “ *Yeniyetməlik dövrünün şərtləri və həyat tərzi* ”.

“Yeniyetmə və uşaq psixologiyası” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“ Yeniyetmə və uşaq psixologiyası” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

“Yeniyetmə və uşaqşaq psixologiyası” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“ Yeniyetmə və uşaq psixologiyası” fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

**“Yeniyetmə və uşaq psixologiyası” ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi** Yeniyetmə və uşaqlik sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin müəyyən yaşda fəaliyyətin psixoloji aspektlərini təhlil və tətbiq edə bilən, müasir elmi-metodik bilik və bacarıqlara yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun nəzəri biliklərinin və praktik bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu –** Yeniyetmə və uşaq psixologiyası insan davranışının psixoloji aspektlərini, şəxsiyyətlərarası münasibətlərdə iştirak edən yeniyetmə və uşaqların psixoloji xüsusiyyətlərini və idrak proseslərinin,şəxsiyyətinin,ünsiyyətinin inkişaf xüsusiyyətlərini öyrənən elm sahəsidir.

Tədqiqatın məzmununu yeniyetmə və uşaq inkişafı praktikası çərçivəsində aparılan tədqiqatlarda istifadə olunan metodların və müasir texnologiyaların tətbiqi; ünsiyyət davranışı, Yeniyetmə və uşaqnin idrak proseslərinin və şəxsiyyətinin psixoloji xüsusiyyətlərini tədqiq edərkən yeniyetmə və uşaq psixologiyasının nəzəri əsaslarından istifadə bacarığı; eksperimental və müşahidə tədqiqatları

zamanı əldə olunan nəticələri təhlil edib nəzəriyyələrə söykənərək izah etmək; yeniyetmə və uşaq psixologiyası sahəsində mövcud problemlərə dair əsaslandırılmış şəxsi fikri ifadə etmək; elmi-tədqiqat fəaliyyətinə aid məlumatların toplanması, təhlili, analizi və təsnifatını həyata keçirmək; psixoloji aspektləri təşkil edir.

Yeniyetmə və uşaq psixologiyası ünsiyyət və fəaliyyət proseslərdə iştirakçıların motivasiyasını, qərar qəbuletmə və davranış modellərini təhlil etməyə, psixoloji faktorları müəyyən etməyə, riskləri proqnozlaşdırmağa və qiymətləndirmələri aparmağa imkan verir.

**Tədqiqatın obyekti -** Yeniyetmə və uşaqlik yaşında olan şəxslər, onların fərdi psixoloji xüsusiyyətləri, şəxsiyyət və davranış modelləri, ünsiyyət vərdişləri, psixi proseslərin ,nitqin psixoloji xüsusiyyətləri, məktəbə adaptasiya prosesləri,dilə meyillik və individuallı,eyni zamanda ali psixi funksiyaların inkişafı psixologiyasıdır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 6102.01 - "Uşaq vəyeniyetmə psixologiya" istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

- elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və imtahan prosesində 6102.01 – " Yeniyetmə və uşaq psixologiyası" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsil Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsilalanların doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi nəticəsində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu müəyyən etmək;
- doktorantın Yeniyetmə və uşaq fəaliyyətinin psixologiyası, sensor inkişaf xüsusiyyətləri,seçici yaradıcılıq keyfiyyətləri,musiqi qavraması,yeniyetmələrin təfəkkürünün inkişaf xüsusiyyətləri,gələçək intellektual potensialın proqnozlarının psixoloji əsasları haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;
- doktorantın ünsiyyət prosesində iştirakçıların psixoloji analizini aparmaq, kommunikativ bacarıqlarının psixoloji xüsusiyyətlərini qiymətləndirmək, davranış formalarının psixoloji keyfiyyətlərini təhlil etmək bacarığını qiymətləndirmək;
- doktorantın Yeniyetmə və uşaq psixologiyasının nəzəri və praktik metodlarını müstəqil tətbiq etmək, Yeniyetmə və uşaqlərin müxtəlif fəaliyyət növlərində psixoloji vəziyyətini təhlil etmək, əldə olunan bilikləri mövcud olan praktik təcrübələrdə tətbiq etmək, elmi nəticələri qiymətləndirmək və yeniyetmə və uşaq psixologiyasının metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan bacarıqların üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

- müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar:**

- Yeniyetmə və uşaq psixologiyası sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti;

**Peşəkar bacarıqlar:**

- Yeniyetmə və uşaq psixologiyası sahəsində nəzəri və praktik tədqiqatların metodologiyasının mənimsənilməsi;
- elmi tədqiqatlarda Yeniyetmə və uşaq psixologiyasının nəzəri və praktik əsaslarından istifadə etmək qabiliyyəti;
- müxtəlif fəaliyyət növləri proseslərində iştirakçıların psixoloji təhlilini aparmaq, diqqətin,hafizənin,təxəyyülün inkişaf xüsusiyyətlərini, kompüter mədəniyyətinin yeniyetmənin psixi inkişafına təsirinin psixoloji xüsusiyyətlərini qiymətləndirmək və məktəb praktikalarında tətbiq etmək bacarığı.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- Yeniyetmə və uşaq psixologiyası sahəsində elmi-tədqiqat fəaliyyətinin əsas metodları və prinsipləri;
- Yeniyetmə və uşaq fəaliyyəti, ali psixi funksiyalarının təzahür xüsusiyyətləri, ünsiyyət,fəaliyyət,davranış sahələrində nəzəriyyələr və eksperimental tədqiqat üsulları;
- Yeniyetmə və uşaq psixologiyası tədqiqatlarının metodoloji xarakteristikaları;
- Yeniyetmə və uşaq inkişafı proseslərində psixoloji tədqiqatların planlaşdırılması və həyata keçirilməsi;
- Yeniyetmə və uşaq psixologiyasında inkişaf mərhələləri və nəzəri əsaslar;
- Yeniyetmə və uşaqlərin şüurunun,mənlik şüurunun, şəxsiyyətin və ünsiyyətin psixoloji xüsusiyyətləri, idrak və emosional proseslər;
- fərdi psixoloji xüsusiyyətlərin məktəb praktikası və təlim proseslərdə rolu;
- müasir Yeniyetmə və uşaq psixologiyası nəzəriyyələri, tədqiqat problemləri və onların metodoloji əsasları.

**bacarıqlar:**

- Yeniyetmə və uşaq psixologiyası sahəsində nəzəriyyələri və metodları praktik tədqiqatlarda tətbiq etmək;
- Yeniyetmə və uşaqlərin inkişaf proseslərinin dinamikasını (körpə,, erkən yaşlı, məktəbəqədər yaşlı, yeniyetmə və s.) psixoloji təhlil etmək;
- emosional davranışın və ünsiyyət xüsusiyyətlərinin psixoloji mexanizmlərini təhlil etmək;
- Yeniyetmə və uşaq psixologiyası sahəsində müasir metodlardan və informasiya texnologiyalarından istifadə edərək tədqiqat aparmaq;
- əşyavi fəaliyyətdə,oyun və təlim proseslərində iştirakçıların psixoloji xüsusiyyətlərini qiymətləndirmək;
- Yeniyetmə və uşaq psixologiyasında toplanan nəticələri məntiqi şəkildə yazılı və şifahi təqdim etmək;
- fənlərarası sahələrdə yaranan problemlərin həlli üçün perspektivli nəzəri-metodoloji yanaşmaları inkişaf etdirmək.

**vərdişlər:**

- Yeniyetmə və uşaq psixologiyası sahəsində müstəqil nəzəri və empirik tədqiqat aparmaq;
- müasir elmi nailiyyətləri, o cümlədən məktəbəqədər psixologiya və yeniyetmə psixologiyası sahələrində tətbiq nəticələrini tənqidi qiymətləndirmək;

- Yeniyetmə və uşaqların inkişaf xüsusiyyətlərinin psixoloji vəziyyətini təhlil etmək və proqnozlaşdırmaq;
- şifahi və yazılı nitqini məntiqi, əsaslandırılmış və aydın formada təqdim etmək;
- tədqiqat işinin müxtəlif metodlarını tətbiq etmək və nəticələri statistik üsullarla təhlil etmək;
- Yeniyetmə və uşaq psixologiyası üzrə nəzəri bilikləri praktiki fəaliyyətə çevirmək;
- yerli və xarici alimlərin ən əhəmiyyətli konseptual işlərini qiymətləndirmək və müqayisəli təhlil aparmaq.

## III Bölmə Yeniyetmə və uşaq psixologiyasının ümumi nəzəri məsələləri

### Fəsil 1. Yeniyetmə və uşaq psixologiyasının mövzusu və vəzifələri

Uşaq psixologiyası yaş psixologiyasının mühüm bölməsi olaraq uşağın psixi inkişafının faktlarını və qanunauyğunluqlarını ontogenezdə öyrənir. İnsanın, o cümlədən uşağın psixikasının ontogenez inkişafının dinamikası, şəraiti və hərəkətverici səbəbləri. Uşağın psixi inkişafının dövrlərə bölünməsi haqqında fərqli baxışların şərhi.

Uşaq psixologiyasının bölmələri. Uşaq psixologiyasının başqa elmlərlə əlaqəsi. Uşaq psixologiyasının ümumi, inkişaf və yaş psixologiyası, pedaqoji psixologiya, yaş fiziologiyası, məktəbəqədər pedaqogika üçün əhəmiyyəti.

Müasir uşaq psixologiyasının qarşısında duran elmi-nəzəri və əməli-praktik vəzifələri.

### Fəsil 2. Yeniyetmə və uşaq psixologiyasının qısa inkişaf tarixi

Uşaq psixologiyasının XIX əsrin sonlarına yaxın müstəqil elm kimi meydana gəlməsi. Uşaq üzərində aparılan ilk sistematik müşahidələr. C.Darvin, A.Ten, V.Preyer və başqalarının uşaqlar üzərindəki apardıqları müşahidələrin, onun nəticələrinin qeyd olunmasının uşaq psixologiyasının inkişafında rolu. Uşaqlıq dövrü haqqında əsas nəzəriyyələr.

XIX əsrin sonu və XX əsrin əvvəllərində uşaq psixologiyasının Amerika və Avropa ölkələrində inkişaf vəziyyəti (V.Ştern, A.Bine, K.Büler, Stenli Xoll və başqalarının fikirlərinin təhlili)

Avropa və Amerika alimlərindən J.Piaje, A.Vallon, R.Zozzo, C.Bruner və başqalarının tədqiqatları.

Rusiyada uşaq psixologiyasının inkişafı. İlk olaraq İ.M.Seçenovun, V.M.Bexteryevin, N.M.Şelivanovun psixofizioloji tədqiqatları.

Görkəmli rus psixoloqları L.S.Vıqotskinin, P.P.Blonskinin, A.N.Leontyevin, D.B.Elkoninin, D.A.Lyublinskayanın, M.İ.Lisinanın, V.S.Muxinanın, F.O.Smirnovanın və başqalarının uşaq psixologiyası sahəsindəki fəaliyyəti.

Azərbaycanda uşaq psixologiyasının inkişafı. Bu sahədə A.O.Makovelskinin, Ə.K.Zəkuyevin, M.C.Məhərrəmovun, Ş.S.Ağayevin, Ə.S.Bayramovun, Ə.Ə.Əlizadənin, Ə.Ə.Qədirovun, M.Ə.Həmzəyevin, Z.M.Mehdizadənin və başqalarının rolu.

### Fəsil 3. Tədqiqat metodları

Uşaq psixologiyasında tətbiq edilən elmi prinsip və metodların təsnifatı. Tədqiqat metodikasının mərhələləri. Uşaq psixologiyasında istifadə edilən tədqiqat metodları. Müşahidə və onun növləri. Uşağın öyrənilməsində longütyidal (uzun müddətli) müşahidələrdən istifadə. Eksperiment və onun növləri. Test və anket üsulunun tətbiqi imkanları.

Uşaq qruplarının və kollektivinin öyrənilməsində sosiometrik üsullar. Müsahibə, söhbət, fəaliyyət məhsullarının toplanması və təhlili (rəsm, yapma, quraşdırma) üsullarının tətbiqi.

### Fəsil 4. Yeniyetmə və uşaq psixologiyasında psixi inkişaf problemi

Yaş psixologiyasında yaş və onun növlərinin inkişafı problemi. Psixoloji yaş və onun xüsusiyyətləri. Fəaliyyətin növlərindən asılı olaraq psixi inkişafın təzahür xüsusiyyətləri. Psixi

inkişafın əsas faktorları və qanunauyğunluqları. Ontogenetik inkişaf və inkişaf prosesində şəxsiyyətin təşəkkülü. Uşağın psixi inkişafında nəzərə çarpan yaş böhranları. 1 yaşın, 3 yaşın və 6-7 yaşın böhran vəziyyətinin səciyyəsi. Psixi inkişafın fərdi xüsusiyyətləri. Tərbiyə və uşaq şəxsiyyətinin formalaşması xüsusiyyətləri. Uşaqların psixi inkişafa görə yaş dövrlərinə bölünməsi haqqında J.Piajenin, Z.Freydin, E.Eriksonun, L.Kolberqin, L.S.Vıqotskinin, A.N.Leontyevin, D.B.Elkoninin baxışları.

**Fəsil 5. Psixi inkişafın zəmini və şərtləri**

Psixi inkişaf haqqında biogenetik və sosiogenetik nəzəriyyələrin mahiyyəti və tənqidi. Xarici ölkə alimləri S.Xoll, E.Klapared, C.Selli, G.Büler, L.Blets və başqalarının inkişafda təbii, bioloji amillərin əsas, aparıcı rolunu həddən artıq şişirtməsi haqqında baxışları. Amerika alimi E.Torndaykın "Təlimin psixologiyaya əsaslanan prinsipləri" (1929) əsərinin təhlili.

Şəxsiyyətin psixi inkişafının üç: bioloji, sosial və biososial istiqamət üzrə şərhi. Rus psixoloqu A.Mudrikin inkişafın sosiallaşması haqqında baxışları.

Psixi inkişafın zəmini və şərtləri haqqında mövcud nəzəriyyələrin, yəni inkişafın təkamül, inkişafın "inqilabi", inkişafın ehtimal, inkişafın funksional, inkişafın "bağlılıq" nəzəriyyəsi kimi qruplaşdırılması istiqaməti üzrə şərhi. İnkişaf haqqında rus psixoloqu L.S.Vıqotskinin psixi inkişafın "mədəni-tarixi" nəzəriyyəsi.

**Fəsil 6. Psixi inkişaf və fəaliyyət**

Uşağın psixi inkişafının əməli vərdişlərə yiyələnməklə əlaqəsi. Psixi inkişafda fəaliyyətin müxtəlif növlərinin, sturukturasının (tərkib hissələri) rolu. Yaşdan asılı olaraq əsas, aparıcı fəaliyyətin səciyyəsi. Fəaliyyətin intoriorizasiyasının (daxili), və eksteriorizasiyasının (xarici) əsaslandırılması. Psixi inkişafda fəaliyyətin mənimsənilməsi formalarının (bilik, bacarıq, vərdiş və adətlər) əhəmiyyəti. Uşağın psixi inkişafında həmyaşıdlarla, yaşlılarla ünsiyyət fəaliyyətinin rolu. Uşağın həmyaşıdları içərisində psixi inkişaf prosesində situativ-şəxsi, situativ-işgüzar və şifahi-danışıq ünsiyyəti.

**Fəsil 7. Psixi inkişaf və təlim**

Uşağın psixi inkişafında inkişafetdirici təlim və tərbiyənin rolu. Təlim prosesinin əsas komponentlərinin psixi inkişafda həlledici əhəmiyyəti. Təlimin aparıcı fəaliyyət kimi səciyyəsi. Psixi (əqli) inkişafın səviyyələri.

Təlim və psixi inkişafın əlaqəsi haqqında alman alimi V.Şternin və rus psixoloqu L.S.Vıqotskinin fərqli baxışları. Təlimin interaktiv metodlarından istifadə. Kollektiv diskussiyalar, imitasiya, işgüzar oyunlar, rollu tapşırıqlar və treninqlər, situasiyanın təhlili və s. metodlarından istifadə etməklə uşaqların psixi inkişafına nail olma imkanları. Təlim, sosial təcrübə və bilikilərin mənimsənilməsi.

## IV BÖLMƏ ÇAĞALIQ VƏ KÖRPƏLİK YAŞ DÖVRÜNDƏ PSİXİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ

**Fəsil 8. Çağalıq yaş dövründə psixi inkişafın xüsusiyyətləri**

Yeni doğulmuş uşaqların fiziki inkişafı. Şərtsiz, şərti və bələdləşmə (oriyentir) refleksləri. "Canlanma kompleksi" və onun inkişafı. Çağaların başqaları ilə emosional ünsiyyəti. Çağanın reseptor və hərəki sferasının inkişafı. Çağalarda müşahidə olunan fərdi fərqlər. Çağalarda idrak proseslərinin inkişafı.

**Fəsil 9. Körpəlik yaş dövründə psixi inkişafın xüsusiyyətləri**

Körpəlik yaş dövrünün psixoloji səciyyəsi. Əşyavi fəaliyyətin inkişafı. İməkləmək, ayaqüstə durmanın və yerimənin səciyyəsi. Əşyavi fəaliyyətin nitq fəaliyyətinin inkişafına təsiri.

Körpələrdə idrak proseslərinin inkişafı. Duyğu və qavrayışın, diqqət və hafizənin inkişafı. Körpələrdə təfəkkür və onun formalarının, proses və növlərinin inkişafı.

Nitqin səslə, danışıq yolu ilə inkişafı. Dioloji nitqin motivasiyası. Şifahi nitqlə ünsiyyətin yaranması.

**Fəsil 10. 1 yaş böhranı.** Körpələrin fiziki və psixi inkişaf xüsusiyyətləri.. Uşaqların ünsiyyət dairəsinin genişlənməsi. Ünsiyyət prosesində emosional halların, əxlaqi, estetik, intellektual və praksioloji hisslərin ilkin təşəkkül xüsusiyyətləri. Davranış motivasiyasının təşəkkülü.

Nitq fəaliyyətinin fonetik, morfoloji və sintaktik əlamətlərinin ilkin inkişaf xüsusiyyətləri.

**Bölmə V.Erkən yaşlıları psixoloji xüsusiyyətləri.**

**Fəsil 11. Erkən yaşlı uşaqların fiziki və psixi inkişaf xüsusiyyətləri**.Əşyavi manipulyativ fəaliyyət növü aparıcı növü kimi və onun mərhələləri.Erkən yaş dövründə 1 yaş böhranı.Erkən yaşlılarda psixi funksiyaların inkişafı.Erkən yaşda şəxsiyyət keyfiyyətlərinin təzahürləri.Erkən yaşlılarda emosional inkişaf.3 yaş böhranı.Erkən yaşlıların ünsiyyət inkişafının xüsusiyyətləri.Nitqin inkişafı.Nitq və ünsiyyət.Erkən yaşda müstəqillik meylinin formalaşması.

**VI BÖLMƏ MƏKTƏBƏQƏDƏR YAŞLILARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ**

**Fəsil 12. Məktəbəqədər yaşda psixi inkişafın xüsusiyyətləri**

Məktəbəqədər yaşlıların anatomik-fizioloji xüsusiyyətləri. “Üç yaşın” böhranı problemi. Məktəbəqədər yaşda şəxsiyyət və onun psixoloji keyfiyyətlərinin təşəkkülü. Tələbat və maraqların, motivasiyanın təşəkkül xüsusiyyətləri. Emosiya və hisələrin, iradi keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Məktəbəqədər yaşlıların həmyaşıdları və böyüklərlə ünsiyyəti. Oyun fəaliyyəti prosesində ünsiyyət dairəsinin genişlənməsi.

**Fəsil 13. Məktəbəqədər yaşlılarda idrak proseslərinin inkişafı**

Məktəbəqədər yaşda duyğu və qavrayışın ümumi səciyyəsi. Ətraf aləmə münasibət. Sensor inkişafın uşağın fəaliyyəti ilə əlaqəsi. Cismin qavranılması.

Təfəkkürün inkişafının sosial-psixoloji problemləri. Məktəbəqədər yaşda əyani-əməli təfəkkürün inkişaf xüsusiyyətləri. Əyani-obrazlı, məntiqi təfəkkürün inkişafı.

Nitqin növlərinin və funksiyalarının inkişafı. Nitqin inkişafında oyun fəaliyyəti növlərinin əhəmiyyəti.

Məktəbəqədər yaş dövründə diqqətin inkişaf xüsusiyyətləri.

Məktəbəqədər yaşlarda hafizənin, xüsusilə qeyri-ixtiyari hafizənin inkişafı. İxtiyari hafizənin, hafizə proseslərinin şifahi tapşırıqlar vasitəsilə inkişafı.

**Fəsil 14. Məktəbəqədər yaşlılarda təxəyyülün inkişafı**

Məktəbəqədər yaşda təxəyyülün ümumi xarakteristikası. Təxəyyülün təzahür formaları. Bərpaedici və yaradıcı təxəyyül vasitəsilə surətlərin yaradılması. Mübaliğə və təqlid etmə yolu ilə obraz yaradılması prosesi. Mərhələlər üzrə təxəyyülün formalaşması xüsusiyyətləri. Təxəyyülün funksiyaları. Təxəyyülün inkişafında oyunun təsviri və konstruktiv (quraşdırma) fəaliyyətinin rolu. Nağıl və kiçik hekayələrin təxəyyülün inkişafına təsiri.

**Fəsil 15. Məktəbəqədər yaşlılarda şəxsiyyətin inkişafı**

Məktəbəqədər yaşlıların davranışında şəxsiyyət keyfiyyətlərinin ilkin təzahürləri. Məktəbəqədər yaşda iradi və idraki əlamətlərin təzahürü. Etik və sosial təcrübənin mənimsənilməsi. Məktəbəqədər yaşda özünüşüur və özünüqiymətləndirmənin inkişafı. Həmyaşıdlarla ünsiyyətin xüsusiyyətləri. Məktəbəqədər yaşlıların böyüklərlə ünsiyyəti və şəraitdən asılı olaraq ünsiyyət formalarının dəyişməsi. İlkin uşaq kollektivinin yaranması. Uşaqların bu prosesdə fəallığı.

**Fəsil 16. Məktəbəqədər yaşda oyun fəaliyyəti**

Məktəbəqədər yaşda oyun fəaliyyətinin aparıcı fəaliyyət kimi səciyyəsi. Oyunun sosial-psixoloji mahiyyəti. Oyunun növləri. Sujetli, rollu, dramatik, qaydalı və didaktik oyunlar. Uşağın psixi inkişafında oyunun təsiri. Bağçalarda oyun vasitəsilə əmək işlərinin, xüsusilə, rəsm, yapma və quraşdırma işlərinin icrası. Oyunun bilik, bacarıq və vərdişlərin mənimsənilməsində rolu.

**Fəsil 17. Uşaqların məktəb təliminə psixoloji hazırlığı**

Məktəb təliminə hazırlığın psixoloji problemləri. Psixoloji hazırlığın komponentləri. Məktəbə psixoloji hazırlıq işində adaptasiyanın rolu. 6-7 yaşlı uşaqların əsas böhran əlamətləri. Böhran əlamətlərinin yaranmasının psixoloji səciyyəsi.

**VII Bölmə. Kiçik məktəb yaşı dövrünün psixoloji xüsusiyyətləri (6;7-10)**

**Fəsil 18.Kiçik məktəb yaşı dövründə sosial situasiyanın inkişafı.**Kicik məktəblinin psixi inkişafında təlim və tərbiyənin rolu.Kıiçik məktəblinin ailədə yeri.Müəllim və yoldaşlarıyla münasibətlər.Məktəb şəraitində altıyaşlıların davranışı.Təlim fəaliyyəti kiçik məktəblinin əsas fəaliyyət növü kimi.Məktəb şəraitinə adaptasiyada obyektiv şərtlərin dəyişməsi (sosil situasiya).

**Fəsil 19.Ünsiyyət xüsusiyyətləri**.Valideynlərlə və digər yaşlılarla ünsiyyət.
Müəllim üslubunun kicik məktəblinin unsiyyət inkişafına təsiri.Məktəbdə kiçik məktəblinin ünsiyyət və nitq xüsusiyyətləri.Kiçik məktəblinin sosial həyatı.Kiçik məktəblinin təlim və tərbiyəsində müəllim şəxsiyyətinin rolu.Kiçik məktəblinin şəxsi mövqeyinin formalaşmasında müəllimin rolu.Sinif şəraitində oğlan və qiz münasibətləri.Kiçik məktəblinin həyat fəaliyyətində ailə ilə məktəb birliyinin zəruriyi.Həmyaşıdları ilə ünsyyət xüsusiyyətləri.

**Fəsil 20.Kiçik məktəblinin idrak fəaliyyəti.**Təlim və praktik məsələlər həllində uşaqların intellektual proseslərinin formalaşmasının xüsusiyyətləri.Təlim fəaliyyəti,onun strukturu əqli inkişafın mənbəyi kimi.Yaş xüsusiyyətləri və biliklərə yiyələnmə imkanları. Psixi proseslərin intellektuallaşma problemi:qavrayış və müşahidəçiliyin inkişafı.Kiçik məktəblinin hafizəsi,səmərəliliyinin artırılması yolları.Diqqət və təxəyyülün inkişaf xüsusiyyətləri.

**Fəsil 21. Kiçik məktəb yaşı düvrühdə şəxsiyyətinin inkişaf xüsusiyyətləri.**Mənlik şüurunun inkişaf xüsusiyyətləri.Adı.Xarici görünüşü.Üz cizgiləri.Bədənı.İddia və tanıma,müsbət nailiyyətləri və mənfi törəmələrı.Cinsi identifikasiya.Kiçik məktəb yaşı dövründə uşaq şəxsiyyətinin psixoloji zamanı. Kiçik məktəb yaşı dövründə uşağın mənlik şüurunda sosial məkan.Hisslərin inkişafı.İradənin xüsusiyyətləri.Kiçik məktəblinin sosial fəallığının formalaşması.Ekoloji şüurunun əsaslarının formalaşması.Milli və beynəlmiləl özünüdərkin formalaşmasının psixologiyası.Psixi deprivasiya şəraitində kiçik məktəblinin şəxsiyyətinin inkişaf xüsusiyyətləri.Kiçik məktəb yaşı dövründə fərdi fərqlər.

**Fəsil 22.** Kişik məktəblinin təlim fəaliyyəti aparıcı fəaliyyət növü kimi.Məktəb təliminə hazırlıq.Təlim fəaliyyətinin ümumi səciyyəsi.Təlimin strukturu.Məktəbə,müəllimə və tədris öhdəliklərinə münasibətlər sisteminin formalaşması.Əxlaqi normaların və davranış qaydalarının mənimsənilməsi.Şagirdin hüquq və vəzifələrinin dərk edilməsi. Kiçik məktəb yaşı dövründə təlimə münasibətin dəyişməsi,qarşıya cıxan çətinliklər.Şagirdin təlim fəaliyyətinin məzmununa marağın təsiri. Kiçik məktəblinin motivasiya aləmi,onun hissi-iradi və emosional davranışının səciyyəsi. Kiçik məktəb yaşı dövründə təlim və oyun.Kicik məktəblinin əmək fəaliyyətinin psixoloji xüsusiyyətləri.

**VIII Bölmə.Yeniyetmələrin psixoloji xüsusiyyətləri (10;11-15)**

***Fəsil 23. Yeniyetməlik dövrünün şərtləri və həyat tərzi*** . Yeniyetməlik dövrünün əhəmiyyəti. Yeniyetməlikdə sosil situasiya. Yetişmənin üç fərqli vektoru yeniyetmənin böhranlı davranışının əsası kimi. ( L.S. Vıqotski yetişmənin üç xəttini qeyd edirdi : orqanik, cinsi və sosial).Yeniyetmə ailədə,məktəbdə,həmyaşıdları arasında.Yeniyetməlikdə yaş dövrləri.Yeniyetməlikdə təlim fəaliyyəti.Təlimin motivləri,stimulları.Təlim motivlərinin formalaşması.Əxlaq normalarının,davranış

qaydalarının inkişafı. Yeniyetməlik dövrünün xronoloji sərhədlərinin şərhi. Yeniyetməlik dövründə inkişafın xarakterinin və tempinin sosial mədəni situasiyadan asılılığı. Yeniyetməlik dövründə əmək fəaliyyətinin psixoloji xüsusiyyətləri.Yeniyetmənin oyunları.

***Fəsil 24.* Yeniyetməlik dövründə ünsiyyət xüsusiyyətləri**

Müasir yeniyetmələrin böyüməsinin sosio-mədəni situasiyası : 5 faktorun müasir yeniyetmələrin psixikasına təsiri ( mobilizasiya, marqinallaşma, markekizasiya, medikalizasiya). Valideynlərlə,həmyaşıdları ilə unsiyyətin əhəmiyyətiYeniyetməlik dövrü "fırtına və təlatüm" dövrü kimi. S.Hollun yeniyetmənin davranışı nəzəriyyəsində ambivalentlik və ziddiyyət : təbiəti, təzahürləri. Yeniyetməlik dövrünün inkişafının riskləri və nailiyyətləri. Yeniyetmənin böhranı uşaqlıq asılılığından azad olunmaq mərhələsi kimi. Yeniyetmənin şəxsiyyətinin əsas nailiyyətləri. Nitq inkişafına tələbat ünsiyyət vasitəsi kimi.Ünsiyyət və cinsi identiklik.Yeniyetmələrin seksual qarşılıqlı təsirlərinin psixologiyası.Yaşanan stresslər.İlk məhəbbət.

**Fəsil 25. Yeniyetməlik dövründə idrak fəaliyyəti.**

Yeniyetmə qruplarında avtonom nitq.Yeniyetmələrin ünsiyyətində jestlərin əhəmiyyəti.Dil işarə sistemlərinin reallığına daxil olma.Məktəb,dil və individuallıq.Ali psixi funksiyaların inkişafı.Sensor inkişaf.Seçici yaradıcılıq qavraması.Musiqi qavraması.Yeniyetmələrin təfəkkürünün inkişaf xüsusiyyətləri,gələçək intellektual potensialın proqnozları.Diqqətin,hafizənin,təxəyyülün inkişaf xüsusiyyətləri. Kompüter mədəniyyətinin yeniyetmənin psixi inkişafına təsiri.

**Fəsil 26. Şəxsiyyətin inkişafı.**

Yeniyetməlik periodu pubertant dövrü kimi Pubertantın psixi simptomları. Pubertantın neqativ və pozitiv fazalarında qender fərqləri. E.Ştern yeniyetməlik yası şəxsiyyətin formalaşmasının xüsusi mərhələsi kimi. "Ciddi oyun" yeniyetmənin hərəkətinin xüsusi obrazı kimi. Yeniyetməlik yası E.Eriksonun tədqiqatlarında eqoidentifikasiyanın əhəmiyyətli mərhələsi kimi. "Rolların diffuziyası" anlayışı. Yeniyetməlik dövrü koqnitiv baxımdan həyat proqramının quruluşunda formal intellektin (məntiqin) rolu. .L.S. Vıqotskinin tarixi-mədəni konsepsiyasında yeniyetmələrin maraqları (dominantları) mərkəzi problem kimi. Yeniyetməlik yasında refleksiyanın və mənlik şüurun inkişafı. Şəxsiyyətlər arası, intim ünsiyyət yeniyetmənin inkişafının amili kimi. Yeniyetmənin böyümə prosesinin növləri : əlamətləri və təzahürləri, şərtləri və nailiyyətləri. Böyüklük hissi yeniyetməlik dövrünün əsas yeni yaranan (pattern) kimi. Yeniyetməlik dövründə inkişafın sosial situasiyasının spesifikası. Əxlaqi mövqe və özünü identifikasiya yeniyetməlik dövründə yeni yaranan (pattern) kimi. Ölüm qorxusu.Yeniyetmə suisidallığı Narkotiklərin, intim təsəvvürlərin yeniyetmələrin şəxsiyyətinin formalaşmasına təsiri. Mövcud olan mənəvi-əxlaqi dəyişiklər və yeniyetmələrin qəddarlıq, zorakılıq, suisidal davranış problemləri. Yeniyetmələrin submədəniyyəti, onların müxtəlif birlikləri.

## IX BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

**Əsas ədəbiyyat:**


1. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. B. 2013
2. Əlizadə Ə. Yaş və pedaqoji psixologiya. B.2005
3. Əzimi Q.İ. İnkişaf,yaş və pedaqoji psixologiyanın müasir problemləri B.2014
4. Qədirov Ə.Ə. Yaş psixologiyası. B. 2008
5. Çələbiyev N.Z. Uşaq psixologiyası. B. 2005
6. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. B. 2003
7. Həmzəyev M.Ə. Ailədə uşaqların oyunlarına rəhbərlik. B. 1962
8. Mehdizadə Z.M. Uşaq psixologiyası. I hissə. B. 1978

9. Mehdizadə Z.M. Uşaq psixologiyası. II hissə. B. 1980
10. Mehdizadə Z.M. Uşaq psixologiyası. III hissə. B. 1982
11. Vəliyev M.V., Mustafayev A.M. Uşaq psixologiyası. Metodik vəsait B.2011
**12.** Смирнова Е.О.Детская психология.Питер,2009

Əlavə ədəbiyyat

1.Валлон А. Психическое развитие ребёнка.М.1967.
2.Выготский Л.С.Вопросы детской психологии.СПб,1997.
3.Грэйс Крайг Психология развития.Санкт-Петербург,Москва,2002
4.Кулагина И.,Колюцкий Ю.Возрастная психология.М.,2001.
5.Мухина В.С. Возрастная психология М. 2022
6.Болотова А.К , Молчанова О.Н. Психология развития М. 2012
7. Смирнова.Е.О Детская психология М.2021
8. Кулагина И.Ю. Психология детей М.2022.
9.Мухина В.С .Шестилетний ребёнок в школе М.1990.
10.Эльконин Д.Б. Детская психология.М.,2007
11Хилько М.Е. , Ткачева М.С. Возрастная психология М. 2022.
12.Божович Л.И.Личность и её формирование в детском возрасте.М.,1981.

## IX BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

### Metodik göstərişlər

**Doktorantların 61 -** “Psixologiya” hazırlıq istiqaməti, 6102.01 “Yeniyetmə və uşaq psixologiyası” ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı şifahi formada aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı yeniyetmə və uşaq psixologiyası moduluna aid mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadan kənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları** İmtahan zamanı doktorant proqramda nəzərdə tutulmuş suallara ətraflı cavab verməlidir. Komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant aşağıdakı bilik, bacarıq və vərdiş.lərini nümayiş etdirməlidir:

- şaq və yeniyetmə psixologiyası nəzəriyyələri və eksperimental tədqiqat üsullarına aid biliklər; yaş dövrləri, şəxsiyyət, ünsiyyət, Yeniyetmə və uşaqnin davranış və bu sahələrdə nəzəri əsaslar; yaş psixologiyası tədqiqatlarının metodoloji xarakteristikaları;
- Yeniyetmə və uşaq dövründə idrak proseslərinin və ümumi inkişafı praktikası çərçivəsində aparılan tədqiqatlarda istifadə olunan metodların və müasir texnologiyaların tətbiqi; ünsiyyət davranışı, Yeniyetmə və uşaqnin idrak proseslərinin və şəxsiyyətinin psixoloji xüsusiyyətlərini tədqiq edərkən yeniyetmə və uşaq psixologiyasının nəzəri əsaslarından istifadə bacarığı; eksperimental və müşahidə tədqiqatları zamanı əldə olunan nəticələri təhlil edib nəzəriyyələrə söykənərək izah etmək;

yeniyetmə və uşaq psixologiyası sahəsində mövcud problemlərə dair əsaslandırılmış şəxsi fikri ifadə etmək; elmi-tədqiqat fəaliyyətinə aid məlumatların toplanması, təhlili, analizi və təsnifatını həyata keçirmək;

- sahədə yaranmış mövcud elmi-metodoloji yanaşmaları təhlil etmək; yeniyetmə və uşaq psixologiyası tədqiqat metodlarının bu və ya digər məsələləri barədə şəxsi mövqeyini əsaslandırmaq;
- cavabın tamlığı doktorantın proqram üzrə nəzərdə tutulmuş təhsil nəticələrinə nə dərəcədə uyğunluğunu əks etdirir.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün **50 ballıq sistem əsasında "əla" (45-50 bal), "yaxşı" (35-44 bal), "kafi" (25-34 bal), və ya "qeyri-kafi" (0-24 bal)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| Ballar | Qiyməndirmənin meyarları |
|---|---|
| 1 | 2 |
| "əla" (45-50 bal) | Doktorant anlayışlar aparatını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, Yeniyetmə və uşaq psixologiyası elminin tarixi, aktual nəzəri problemləri, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri tənqidi mövqedən qiymətləndirə bilir. |
| "yaxşı" (35-44 bal) | Doktorant zəruri anlayışlar aparatını mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, Yeniyetmə və uşaq psixologiyası elminin tarixi, aktual nəzəri problemlər, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilir. |
| "kafi" (25-34 bal) | Doktorant zəruri anlayışlar aparatını qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, Yeniyetmə və uşaq psixologiyası elminin tarixi, aktual nəzəri problemləri, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi |

| | |
|---|---|
| | məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirməkdə çətinlik çəkir. |
| “qeyri-kafi” (0-24 bal) | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və anlayışlar aparatını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, Yeniyetmə və uşaq psixologiyası elminin tarixi, aktual nəzəri problemləri, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilmir. |

## BÖLMƏ X. FƏLSƏFƏ DOKTORU IMTAHANINA HAZIRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SIYAHISI

1. Yeniyetmə və uşaq psixologiyasının predmeti və vəzifələri
2. Yeniyetmə və uşaq psixologiyasının inkişaf tarixi
3. Yeniyetmə və uşaq psixologiyasının psixoloji elmlər sistemində yeri
4. Yeniyetmə və uşaq psixologiyasında tədqiqat metodlarının təsnifatı
5. Yeni doğulmuş körpənin psixoloji və fizioloji xüsusiyyətləri
6. Çağalıq yaş dövrünün psixoloji xüsusiyyətləri
7. Ontogenetik və filogenetik inkişaf
8. Prenatal dövrdən postnatala keçidin psixoloji xüsusiyyətləri
9. Rüşeymin inkişafının stimulyasiya imkanları və bağlılığın formalaşması
10. Prenatal inkişafın xüsusiyyətləri
11. Körpəlik yaş dövründə aparıcı fəaliyyət növü
12. Körpəlik yaş dövründə psixi inkişafın xüsusiyyətləri
13. Erkən yaş dövründə nitqin inkişaf xüsusiyyətləri
14. Erkən yaş dövründə uşaqlarda diqqətin inkişaf xüsusiyyətləri
15. Erkən uşaqlıq yaş dövründə idrak sferasının inkişafı
16. Erkən uşaqlıq yaş dövründə uşaq şəxsiyyətinin inkişafı
17. Erkən uşaqlıq yaş dövründə psixi fəaliyyət
18. Erkən uşaqlıq yaş dövründə əşyavi fəaliyyətin inkişaf istiqamətləri
19. Erkən uşaq yaş dövründə təfəkkürün inkişafı
20. Erkən uşaqlıqda duyğu və qavrayışın inkişafı
21. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişafının Z.Freyd konsepsiyası

22. Məktəbəqədər yaşlı uşaqlarda hafizənin, təfəkkürün və nitqin inkişafı
23. Məktəbəqədər yaşlı uşaqda emosional sferanın inkişafı
24. Məktəbəqədər yaş dövründə psixi inkişaf
25. Məktəbəqədər yaş dövründə şəxsiyyətin inkişaf xüsusiyyətləri
26. Körpənin psixi inkişafında böyüklərin rolu
27. Kiçik məktəblinin təlim fəaliyyəti və təlimdə uğursuzluq motivasiyasının yaranması
28. Kiçik məktəblilərdə nitqin inkişafı və təlimdə onun rolu
29. Kiçik məktəblilərin həmyaşıdları və müəllimləri ilə ünsiyyətinin spesifik xüsusiyyətləri
30. Kiçik məktəblilərin orqanizminin anatomik-fizioloji quruluşu
31. Kiçik məktəblilərdə intellektual proseslərin inkişaf xüsusiyyətləri
32. Kiçik məktəblilərdə təlim prosesinin xüsusiyyətləri
33. Kiçik məktəbli yaş dövründə şəxsiyyətin formalaşması istiqamətləri
34. Kiçik məktəblilərin şəxsiyyətinin formalaşmasında ailə və məktəbin rolu
35. Kiçik məktəblilərdə emosional-iradi proseslərin inkişafı
36. Kiçik məktəblilərdə sosial rolların mənimsənilməsinin xüsusiyyətləri
37. Kiçik məktəblilərdə şəxsiyyətin inkişaf istiqamətləri
38. Kiçik məktəblilərdə iradi proseslərin xüsusiyyətləri
39. Kiçik məktəbli yaş dövründə idrak proseslərinin inkişaf xüsusiyyətləri
40. Kiçik məktəblilərdə təfəkkürün formaları
41. Kiçik məktəbli yaş dövrünün psixoloji xarakteristikası
42. Oyun məktəbəqədər yaş dövründə uşağın aparıcı fəaliyyət növü kimi
43. Natamam ailələrdə böyüyən yeniyetmələr
44. Müəllimin kiçik məktəblilərin şəxsi keyfiyyətlərinin formalaşmasına təsiri
45. Təxəyyül və məktəbəqədər yaşlı uşağın inkişafında onun rolu
46. Kiçik məktəb yaş dövründə ünsiyyət və fəaliyyət
47. Müxtəlif məktəblərdə (psixoanaliz, koqnitiv nəzəriyyə, biheviorizm, humanistik psixologiya) psixi inkişaf probleminə yanaşmalar
48. Böyümə, inkişaf, təkamül anlayışları
49. Uşaqlarda mənlik şüurunun yaranmasının ilkin göstəriciləri
50. Uşağın məktəb təliminə psixoloji hazırlığı
51. Uşağın inkişafının ilkin nəzəriyələri
52. Psixi inkişafın əsas qanunauyğunluqları
53. Kiçik məktəblilərdə təxəyyülün inkişaf istiqamətləri
54. Biheviorizmdə inkişaf və öyrənmə
55. Oyun nəzəriyyələri, uşaqlarda oyun fəaliyyətinin mərhələləri
56. Assimilyasiya və dissimilyasiya
57. Uşağın psixi inkişafında mühitin rolu və yeni təcrübənin əldə edilməsinin psixoloji mexanizmləri
58. Təlimdə geri qalma problemi və onun həlli yolları
59. Məktəbə psixoloji hazırlığın diaqnostikası
60. Ünsiyyət tələbatlarının formalaşması
61. Uşaqlarda şərtsiz və erkən şərti reflekslərin formalaşması
62. Uşaqlarda özünütanıma qabiliyyəti və özü haqqında təsəvvürlər
63. Əşyavi-manipulyativ fəaliyyət erkən uşaqlıq yaş dövründə aparıcı fəaliyyət növü kimi
64. Psixi inkişafın uşağın fəaliyyətinin strukturundan və məzmunundan asılılığı
65. Psixi inkişafın yaş dövrləri

66. Üç yaş böhranı və onun xarakterik cəhətləri
67. Psixi fəaliyyət subyektin əşyavi fəaliyyətinin interiorizasiyasi kimi
68. Hiperaktiv və hipoaktiv uşaqlar
69. Sensor proseslərin bətndaxili inkişafının xüsusiyyətləri
70. Süjetli-rollu oyunların yaranmasının ilkin zəminləri
71. Yeniyetmə və uşaq psixologiyasına fəaliyyət yanaşması
72. Yeniyetmə və uşaq psixologiyasının formalaşmasında biologiya və pedaqogikanın rolu
73. Yeniyetmə və uşaq psixologiyasının metodologiyası və metodları
74. Yeniyetməlik yaş dövründə psixopatoloji pozuntular və xarakterin aksentuasiyası
75. Yeniyetmələrdə motivasiya-tələbat sferasının və davranışın dəyişilməsi
76. Yeniyetməlik yaş dövründə əxlaq dəyərlərinin inkişafı
77. Yeniyetmə və valideynlər arasındakı münasibətlərin xarakteri
78. Yeniyetmənin psixi inkişafında ailənin rolu
79. Yeniyetmələrin cinsi yetişkənliyi və gender rollarının formalaşması
80. Yeniyetmənin psixoemosional vəziyyətinin səciyyəsi
81. Yeniyetməlik yaş dövrünün öyrənilməsinə sosial yanaşma
82. Yeniyetmələrdə mənlik şüurunun formalaşması istiqamətləri
83. Yeniyetmələrin özünüqiymətləndirməsinə təsir edən amillər
84. Yeniyetmənin özünüdərketməsinin təzahür xüsusiyyətləri
85. Yeniyetmələrin davranışına KİV-in təsiri
86. Yeniyetməlik yaş dövrünün öyrənilməsinə eklektik yanaşma
87. Yeniyetməlik yaş dövründə aqressiv davranışın təzahürləri
88. Yeniyetməlik yaş dövründə “Mən” obrazının formalaşması
89. Yeniyetməlik yaş dövrünün öyrənilməsinə psixoseksual yanaşma
90. Yeniyetməlik yaş dövrünün psixoloji xarakteristikası
91. Yeniyetmənin psixi inkişafında ailənin rolu
92. Yeniyetmələrin asosial davranışlarının təzahürləri
93. Yeniyetməlik yaş dövründə peşə seçimi
94. Yeniyetməlik dövründə öyrəniməsinə koqnitiv yanaşma
95. Yeniyetməlik yaş dövrünün öyrənilməsinə bioloji yanaşma
96. Ünsiyyət yeniyetməlik yaş dövründə aparıcı fəaliyyət növü kimi
97. Cəmiyyətin və həmyaşıdların yeniyetmələrin davranışına təsiri
98. Yeniyetmələrin intellektual inkişafının xüsusiyyətləri
99. Məktəbə psixoloji hazırlıq
100. Müxtəlif məktəblərdə (psixoanaliz, koqnitiv nəzəriyyə, biheviorizm, humanistik psixologiya) psixi inkişaf probleminə yanaşmalar